UOT 94

ƏSMƏR ŞÜKÜRLÜ
Bakı Dövlət Universitetinin
Türk xalqları tarixi kafedrasının doktorantı
asmar.shukurlu@gmail.com

QAZAXISTANIN BAKI-TBİLİSİ-CEYHAN BORU KƏMƏRİNƏ QOŞULMASININ ƏHƏMİYYƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/107/164-167

XX əsrin sonlarında SSRİ dağıldıqdan sonra beynəlxalq münasibətlər sistemində müstəqil dövlətlər yarandı. Yeni yaranmış dövlətlər Xəzər dənizi hövzəsində olan təbii sərvətlərin dünya bazarına çıxarılmasında maraqlı idilər. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Bu müqavilə region üzrə müstəsna bir addım idi. Dünyanın neft bölgələrindən biri kimi tanınan Xəzər dənizi hövzəsi Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən keçən 1774 km uzunluğundakı Bakı-Tbilisi-Ceyhan boru xətti ilə Aralıq dənizinə birləşir. Bakı-Tbilisi-Ceyhan neft kəməri ilkin olaraq Azəri-Çıraq-Günəşli yatağındakı neftin nəql edilməsi üçün nəzərdə tutulsa da, karbohidrogen yataqları ilə zəngin olan Qazaxıstan da öz neftinin bir hissəsinin dünya bazarına Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə çıxarılmasının tərəfdarı idi.Qazaxıstan neftini dünya bazarına çıxarmaq üçün Bakı-Tbilisi-Ceyhan boru kəmərinə 2006-cı ildə qoşulmuşdur. Qazaxıstanın Bakı-Tbilisi-Ceyhan neft kəmərinə qoşulması həm iqtisadi, həm də siyasi cəhətdən mühüm rol oynayır. Məqalədə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin yaranmasından, Qazaxıstanın Bakı-Tbilisi-Ceyhan neft kəmərinə qoşulmasından və onun əhəmiyyətindən bəhs olunacaq.

Açar sözlər: Bakı-Tbilisi-Ceyhan boru kəməri, Qazaxıstan, Azərbaycan, Xəzər dənizi, iqtisadi əməkdaşlıq.

Giriş. Dünya sosializm sisteminin süqutu, SSRİ-nin dağılması, "soyuq müharibə"nin başa çatması, yeni-yeni dövlətlərin müstəqillik əldə etməsi və beynəlxalq hüququn subyektinə çevilməsi kimi hadisələr XX əsrin sonunda beynəlxalq müansibətlər sistemində əsaslı transformasiyaların bünövrəsini qoydu.

XX əsrin sonları – XXI əsrin əvvəllərində dünyada baş verən ictimasi-siyasi və beynəlxalq əhəmiyyətili hadisələr nəticəsində Xəzər dənizi və Qafqaz regionu yenidən dünyanın maraq dairəsində oldu. Dünyanın artan enerji ehtiyyatı və ticarət əlaqələrinin geniləndirilməsi tələbatı qarşısında Xəzər hövzəsi özünün zəngin neft-qaz ehtiyyatları, nəqliyyat-kommunikasiya sahəsindəki imkanları ilə dünyanın nəzər diqqətini özünə cəlb edərək geoiqtisadi maraqların kəsişmə nöqtəsinə çevrilmişdir (5, s.526).

Qazaxıstan və Türkmənistan zəngin neft və təbii qaz ehtiyyatlarına sahib olsalar da beynəlxalq dənizlərə və bazarlara birbaşa çıxışları yoxdur. SSRİ dövründə bölgədəki resursların dünya bazarlarına çıxarılması üçün ixrac yollarının Rusiyadan keçməsi bu ölkələri iqtisadi baxımdan Rusiyadan asılı vəziyyətə salmışdır. Müstəqilliyi yeni əldə etmiş dövlətlər üçün bu asılılığı aradan qaldırmaq üçün alternativ maşrutların inşası vacib idi. BTC-nin yaradılması Qazaxıstan və Mərkəzi Asiya respublikaları üçün yeni bir yol olmuşdur. Qazaxıstanın BTC layihəsinə qoşulması ilə neft kəməri regional statusdan regionlararası statusa yüksəlmişdir (6, s.136).

Bakı-Tbilisi-Ceyhan boru kəmərinin yaradılması. Azərbaycan Prezidenti Heydər Əliyevin neft strategiyasının əsas istiqamətlərindən biri də Azərbaycan neftinin dünya bazarına çıxarılmasına nail olmaq idi. Uzunmüddətli danışıqların nəticəsində strateji əhəmiyyət daşıyan Bakı-Tbilisi-Ceyhan boru kəməri hayihəsinin həyata keçirilməsi ilə nəticələndi. İlk dəfə 1998-ci il aprelin 26-da Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin trabzon görüşündə BTC-nin əsas ixrac kəməri kimi çəkiləcəyi dəqiqləşdirildi (1, s.13). 19 sentyabr 1998-ci il tarixində bir araya gələn Azərbyacan, Qazaxıstan, Türkiyə, Türkmənistan, Özbəkistan, Qırğızıstan və Gürcüstan prezidentləri ortaq deklarasiya imzalayaraq bu layihəyə siyasi dəstək olduqlarını açıqlamışdırlar. Bakı-Tbilisi-Ceyhan (BTC) "Əsas İxrac Neft

Kəməri"nin çəkilişi haqqında dövlətlərarası müqavilə 1999-cu il noyabrın 29-da İstanbulda keçirilmiş ATƏT-in sammitində Azərbaycan, Qazaxıstan, ABŞ, Türkiyə, Gürcüstan və Türkmənistan dövlət başçıları tərərfindən imzalanmışdır (2). Bakıda, Səngəçal terminalında 2002-ci il sentyabrın 18-də Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tiblisi-Ceyhan ixrac neft kəmərinin tikintisinə başlanılmışdır. əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan boru kəmərinin açılış mərasimi 2006-cı ilin iyulun 13-də Türkiyənin Ceyhan şəhərində keçirildi (3).

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi münasibətilə 2005-ci il mayın 26-da Səngəçal terminalında təntənəli mərasim keçirilmişdir. Mərasimdə Azərbaycan, Qazaxıstan, Türkiyə, Gürcüstan prezidentləri, ABŞ-ın energetika naziri, Böyük Britaniyanın, Fransanın, Ukraynanın, Yaponiyanın, Norveçin və digər ölkələrin vəzifəli şəxsləri iştirak etmişdirlər.

Qazaxıstan Prezidenti mərasimdə çıxışında qeyd etmişdir ki, Bakı-Tbilisi-Ceyhan boru kəməri Qazaxıstanın ixrac potensialının artmasına kömək edəcəkdir. Azərbaycan Qazaxıstanın neft ixracında etibarlı tərəfdaşıdır. Həmçinin Qazaxıstan Prezidenti Aktauda müasir limanların yaradılmasını,yeni neft terminallarının tikilməsini, neftin nəql olunması üçün tankerlərin alındığını da vurğulamışdır (10).

Bakı-Tbilisi-Ceyhan boru kəməri regionda hasil olunan neftin dünya bazarlarına nəql etməyə imkan yaradır, çoxşaxəli iqtisadi əməkdaşlığın inkişafını və ölkəmizin maraqlarını dəstəkləyir (4).

Qazaxıstanın neft kəmərinə qoşulması. Qazaxıstan neft və qazla zəngin olan bir ölkədir. Qazaxıstan kabrohidrogen yataqları həm quruda, həmdə Xəzərin Qazaxıstana düşən hissəsində yerləşir. "Tengiz", "Qaraçanaq", "Uzen" və "Kaşaqan" ən böyük neft və qaz yataqları hesab olunur. Qazaxıstanın qərbində Manqıstay, Aktoba və Qızıl-Orda regionlarında da iri yataqlar cəmləşmişdir. "Kaşaqan" yatağı Qazaxıstanda kəşf olunmuş ən böyük yataq sayılır. Qeyd edək ki "Kaşaqan"da konsorsium təşkil edən şirkətlərdən bəziləri həmçinin Bakı-Tiblisi-Ceyhan layihəsinin sıralarındadır. Fransanın "TotalFinaElf", ABŞ-ın "KonokoFilips", "İtalyanın "Acip" və Yaponiyanın "İnpeks" şirkətləri Qazaxıstan neftinin bir hissəsinin BTC ilə nəql edilməsini dəstəkləmişdirlər (7).

Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan boru kəmərinə qoşulmasına dair ilkin danışıqlar 2002-ci ilin noyabr ayında Bakıda ARDNŞ ilə Qazaxıstanın "KazMunayQaz" milli şirkəti arasında baş tutmuşdur. Danışıqlar zamanı Qazaxıstan tərəfi öz neftinin bir hissəsini Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə nəql etmək barəsində bəyanat vermişdir. "KazMunayQaz"ın nəqliyyat infrastrukturu və xidmət layihələri üzrə idarəedici direktoru K.Kabildin bildirmişdir ki, Qazaxıstan BTC-yə təxminən hər il 20 milyon tona qədər neft göndərə biləcək. Həmçinin K.Kabildin qeyd etmişdir ki, Xəzərin dibi ilə boru kəmərinin çəkilməsi məsələsinə baxılmır və daha az həcmdə nefti tankerlərlə Bakıya çatdırmaq daha sərfəlidir. Danışıqların ikinci hissəsi Londonda baş tutmuşdur. Danışıqlar ABŞ Dövlət Departamentinin Xəzər hövzəsinin enerji ehtiyyatları üzrə xüsusi nümayəndəsi, səfir Stiven Mannın iştirakı ilə aparılmışdır (8).

2004-cü il martın 4-də Azərbaycan Prezidenti Qazaxıstanda dövlət səfərində olmuşdur. Dövlət başçıların görüşü zamanı Qazaxıstanın Bakı-Tbilisi-Ceyhan layihəsində iştirakının böyük əhəmiyyətə malik olduğu vurğulandı. Qazaxıstan Prezidenti bildirdi ki, Qazaxıstan neft və qazı Azərbaycandan keçən boru kəmərləri vasitəsilə nəql olunacaqdır (9).

2006-cı il iyunun 16-da Azərbaycan Prezidenti ilə Qazaxıstan Prezidenti "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında neftin Qazaxıstan və Xəzər dənizi və Azərbaycan Respublikasının ərazisi ilə Bakı-Tbilisi-Ceyhan sistemi vasitəsilə beynəlqxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında" müqaviləni imzalamışdırlar. Bu müqavilə ilə Qazaxıstan rəsmi qaydada BTC-yə qoşuldu. Müqavilənin məqsədi Qazaxıstan neftinin Kurık terminalından Bakıya daşınmasını təmin etmək, onun BTC boru kəməri ilə Aralıq dənizinə nəqlinə şərait yaratmaq idi. Qazaxıstanın öz neftini BTC-yə qoşması Azərbaycan üçün də əlverişlidir. Azərbaycan həm tranzit ölkə kimi gəlir əldə edir, həm də onun kəmərinin rentabelliyi artır (11).

Qazaxıstan və Azərbaycan ərazisindəki tankerlərdən, terminallardan, BTC-yə birləşdirilən qurğulardan və Eskene-Kurık neft kəmərindən ibarət Trans-Xəzər sistemi vahid nəqliyyat dəhlizinə - Qazaxıstan Xəzər nəqliyyat Sisteminə çevrilməsini nəzərdə tuturdu.

2008-ci ilin sonlarında ABŞ-ın "Chevron" şirkəti Qazaxıstanın "Tengiz" yatağında hasil etdiyi neftin bir hissəsini tankerlərlə Bakıya, Səngəçal terminalına çatdırmış və oradan da BTC boru xətti ilə Ceyhanda təhvil alınırdı. Lakin 2009-cu ildə dünya bazarında neftin kəskin şəkildə ucuzlaşması və yükdaşıma xərclərinin artması səbəbindən Qazaxıstandan olan yükgötürənlər BTC ilə daşımaları müvəqqəti olaraq dayandırdılar. 2013-cü ilin noyabr ayında isə Qazaxıstan yenidən BTC ilə daşımaları bərpa etdi və bir ay ərzində 243,7 ton neft nəql etdi (1, s.98).

2023-cü il martın 23-də SOCAR "Tengiz" yatağında hasil edilən Qazaxıstan neftinin BTC boru kəməri ilə tranzitinə başlanılmışdır. SOCAR və "KazMunayQaz" şirkəti arasında bağlanan sazişə əsasən, Qazaxıstan BTC boru kəməri ilə ildə 1,5 milyon ton neft tranzitini həyata keçirməlidir (12).

Nəticə. Yuxarıda yazılanarı ümumiləşdirərək belə bir nəticəyə gələ bilərik ki, SSRİ dağıldıqdan sonra müstəqillik əldə dövlətlər təbii sərvətlərini dünya bazarına çıxarmaq üçün yeni tranzit yollardan istifadə etməli idilər. Azərbaycanın irəli sürdüyü layihəyə əsasən Bakı-Tbilisi-Ceyhan neft kəməri Xəzər dənizi ilə dünya enerji bazarlarını birləşdirən əsas ixrac boru kəməri olmalı idi. Bu layihəni Qazaxıstan da həmçinin dəstəkləyirdi. Uzunmüddətli davam edən danışıqlar nəticəsində 2006-cı ilin iyunun 16-da Qazaxıstan Bakı-Tbilisi-Ceyhan boru kəmərinə qoşulmuşdur. Qazaxıstanın BTC-yə qoşulması həm ölkəmizin, həm də Qazaxıstanın maraqlarını dəstəkləyir və iki ölkə arasında eneri sahəsində iqtisadi əlaqələrin inkişaf etməsində müstəsna rol oynamışdır.

ƏDƏBİYYAT

1. Əli Həsənov. Azərbaycanın Geosiyasəti. Bakı- 2015. 1056 s.
2. S.Quliyev. Azərbaycan Bakı-Tiblisi-Ceyhan strategiyası və regional rəqabət. "Tarix və onun problemləri" jurnalı, №1, 2014. S.135-142.
3. İ.Şaban. Bakı-Tiblisi-Ceyhan (BTC) Azərbaycanın əsas neft ixrac kəməri, 2006-2022. Teas Press, 152 s.
4. E.Süleymanov. Bakı-Tiblisi-Ceyhan boru kəmərinin Azərbaycan və Türkiyə münasibətləri baxımından əhəmiyyəti.
5. https://www.researchgate.net/publication/275355032_The_effect_of_Baku-TbilisiCeyhan_pipeline_for_the_relationship_between_Turkey_and_Azerbaijan_Baki-Tbilisi-Ceyhan_boru_xttininin_Azrbaycan_v_Turkiy_munasibtlri_baximindan_hmiyyti[Müraciət tarixi: 25.04.2024]
6. Əsrin müqaviləsi. - https://az.wikipedia.org/wiki/%C6%8Fsrin_m%C3%BCqavil%C9%99si [Müraciət tarixi: 25.04.2024]
7. Azərbaycanın yeni nefT strategiyasının təntənəsi-üç dənizin əfsanəsi reallığa çevrilmişdir.//Azərbaycan . – 2005. – 26 may. – s.1-3
8. Bakı-Tbilisi-Ceyhan neft kəməri. - https://az.wikipedia.org/wiki/Bak%C4%B1%E2%80%93Tbilisi%E2%80%93Ceyhan_neft_k%C9%99m%C9%99ri [Müraciət tarixi: 26.04.2024].
9. F.Sadıqlı. 2010-cu ildə Qazaxıstanda hasilat indikinə nisbətən iki qat artacaq// Azərbaycan . - 2004. – 9 iyun. –s .6
10. Очередной раунд переговоров о присоединении Казахстана к ОЭТ Баку-Тбилиси-Джейхан пройдет в феврале-марте 2003 года. https://www.caravan.kz/news/ocherednojj-raund-peregovorov-o-prisoedinenii-kazakhstana-k-oeht-bakutbilisidzhejjkhan-projjdet-v-fevralemarte-2003-goda-181061/ [Müraciət tarixi: 26.04.2024].
11. E.Miraləm. Qazaxıstan nefti və qazı Azərbaycandan keçən boru kəmərləri vasitəsilə nəql olunacaq //Azərbaycan. -2004. -10 mart s.1
12. F.Sadıqlı.BTC regionun ən iri neft arteryasına çevrilir//Azərbaycan - .2006. – 21iyun. s.6.
13. Qazaxıstan neftinin BTC ilə nəqlinin artırılması təhlil olunur. - https://operativmm.az/az/post/qazaxistan-neftinin-btc-ile-neqlinin-artirilmasi-tehlil-olunur/5467 [Müraciət tarixi: 26.04.2024].

АСМАР ШУКУРЛУ
Докторант кафедры истории тюркских народов
Бакинского государственного университета

ЗНАЧИМОСТЬ ПРИСОЕДИНЕНИЯ КАЗАХСТАНА К ТРУБОПРОВОДУ БАКУ-ТБИЛИСИ-ДЖЕЙХАН

После распада СССР в конце XX века в системе международных отношений появились независимые государства. Новообразованные государства были заинтересованы в выводе природных ресурсов бассейна Каспийского моря на мировой рынок. 20 сентября 1994 года был подписан «Контракт века». Это соглашение стало исключительным шагом для региона. Бассейн Каспийского моря, известный как один из мировых нефтяных регионов, соединен со Средиземным морем трубопроводом Баку-Тбилиси-Джейхан длиной 1774 км, проходящим через Азербайджан, Грузию и Турцию. Хотя нефтепровод Баку-Тбилиси-Джейхан изначально планировался для транспортировки нефти с месторождения Азери-Чираг-Гюнешли, Казахстан, богатый месторождениями углеводородов, также выступал за экспорт части своей нефти на мировой рынок через Трубопровод Баку-Тбилиси-Джейхан присоединился к трубопроводу Баку-Тбилиси-Джейхан в 2006 году, чтобы вывести его на мировой рынок. Подключение Казахстана к нефтепроводу Баку-Тбилиси-Джейхан играет важную роль как в экономическом, так и в политическом отношении. В статье пойдет речь о создании основного экспортного трубопровода Баку-Тбилиси-Джейхан, присоединение Казахстана к нефтепроводу Баку-Тбилиси-Джейхан и его значении.

Ключевые слова: трубопровод Баку-Тбилиси-Джейхан, Казахстан, Азербайджан, Каспийское море, экономическое сотрудничество.

ASMAR SHUKURLU
PhD student of the department
of History of Turkic Peoples of Baku State University

THE IMPORTANCE OF KAZAKHSTAN JOINING THE BAKU-TBILISI-CEYHAN PIPELINE

After the collapse of the USSR at the end of the 20th century, independent states emerged in the system of international relations. The newly formed states were interested in bringing the natural resources of the Caspian Sea basin to the world market. On September 20, 1994, the "Contract of the Century" was signed. This agreement was an exceptional step for the region. Known as one of the world's oil regions, the Caspian Sea basin is connected to the Mediterranean Sea by the 1,774 km long Baku-Tbilisi-Ceyhan pipeline that passes through Azerbaijan, Georgia and Turkey. Although the Baku-Tbilisi-Ceyhan oil pipeline was originally planned for the transportation of oil from the Azeri-Chirag-Gunashli field, Kazakhstan, which is rich in hydrocarbon deposits, was also in favor of exporting part of its oil to the world market through the Baku-Tbilisi-Ceyhan pipeline. It joined the Baku-Tbilisi-Ceyhan pipeline in 2006 to bring it to the world market. Kazakhstan's connection to the Baku-Tbilisi-Ceyhan oil pipeline plays an crucial role both economically and politically. The article provides information on the creation of the Baku-Tbilisi-Ceyhan main export pipeline, the connection of Kazakhstan to the Baku-Tbilisi-Ceyhan oil pipeline and its overall.

Keywords: Baku-Tbilisi-Ceyhan pipeline, Kazakhstan, Azerbaijan, Caspian Sea, economic cooperation.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 16 may 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.e.d. Nisbət Mehdiyeva, t.e.d. İsmayıl Məmmədov.